mağı arzulayacaqlar.

olsun, cəsur Tariverdiyev!



# Milli Xalça Muzeyi - 55

## Dünyanın ilk xalça muzeyi Azərbaycanda...

Dünyanın ilk xalça muzeyi olan Azərbaycan Milli Xalça Muzeyi 55-ci ildönümünü qeyd edir. Yarandığı dövrdə dünyanın yeganə ixtisaslaşdırılmış xalça muzeyi idi. Mədəniyyət ocağının yaranmasının təşəbbüskarı görkəmli alim və xalçaçı, xalça haqqında elmin banisi Lətif Kərimovdur. Yarandığı dövrdə muzeyin öz binası yox idi. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə muzeyin fondlarının zənginləşdirilməsi üçün vəsait ayrıldı və birinci ekspozisiya İçərişəhərdə Cümə məscidində 1972-ci ildə nümayiş etdirildi. 1970-1980-ci illərdə ümummilli lider Heydər Əliyevin davamlı dəstəyi sayəsində muzey sənətkarlıq nümunələrini almaq və bununla da öz kolleksiyasını genişləndirmək imkanı əldə etdi. Müstəqillik dövründə isə Xalça Muzeyi Muzey Mərkəzində fəaliyyət göstərdi.



**Xalça Muzeyi öz binasına qovuşdu**

Məlum olduğu kimi, Xalça Muzeyi ayrı-ayrı dövrlərdə müxtəlif ünvanlarda yerləşib. Ölkəmizin nadir incilərindən olan xalçaların daha geniş və səmərəli nümayişi məqsədilə Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən muzey üçün xüsusi bina tikilməsi qərara alınıb və 2008-ci il mayın 15-də Dənizkənarı Milli Parkın ərazisində binanın təməlqoyma mərasimi keçirilib. Muzey 2014-cü ildən Dənizkənarı Milli Parkda inşa edilən yeni binasına köçürülüb. Açılış mərasimində çıxış edən Prezident İlham Əliyev deyib: "...Bu layihə öz nadirliyi ilə seçilir, fərqlənir. Bu bina xalçanı əks etdirir və əlbəttə ki, Xalça Muzeyinin yerləşdirilməsi ilə bağlı məndə heç bir tərəddüd olmamışdır. Çünki Xalça Muzeyi Bakının ən gözəl yerində, bulvarda olmalı idi. Bu, nadir memarlıq əsəridir".

Bu məqamda xatırladaq ki, 2010-cu ildə Azərbaycan xalça sənəti Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın dəstəyi ilə UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısı"na daxil edilib.

Eləcə də Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 15 iyul 2019-cu il tarixli qərarı ilə ölkəmizin xalça sənətinin qorunması və təbliği sahəsindəki müstəsna xidmətlərinə görə Azərbaycan Xalça Muzeyinə "Milli" statusu verilib. 2019-cu ildən bu günədək Azərbaycan Milli Xalça Muzeyi adlanır.

**Avropanın ən yaxşı muzeyi**

Bu gün muzey beynəlxalq simpoziumlar və konfranslar, sərgi və digər tədbirlərin keçirildiyi elmi-tədqiqat, mədəniyyət və təhsil mərkəzinə çevrilib. 2017-ci ildə Beynəlxalq Muzeylər Şurasının Beynəlxalq Sənədləşmə Komitəsi (CIDOC) tərəfindən "Ən yaxşı təcrübə" mükafatına və "Avropanın ən yaxşı muzeyi - 2018" müsabiqəsində "Muzey sahəsində ictimaiyyətlə işin qurulmasında innovasiyaların tətbiqinə görə" sertifikatına layiq görülüb. Muzeyin 55 illik fəaliyyəti dövründə dünyanın bir çox ölkələrində 30-dan çox sərgi təşkil edib.

**Muzeyə baxış**

Muzeyin "qızıl fondu"nu xovlu xalçalar təşkil edir. Onlar bütün kompozisiyaları ilə Azərbaycanın 7 əsas məktəbini - Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbriz xalça məktəblərini təmsil edir.

Eləcə də muzeydə tunc və antik dövrə, erkən orta əsrlərə aid nadir əşyalar qorunur. "Xovlu xalçalar", "Xovsuz xalçalar", "Xalça məmulatları", "Bədii metal", "Keramika, şüşə, ağac, kağız", "Parça, geyim, tikmə" və "Zərgərlik məmulatları" kimi yeddi kolleksiyanı özündə birləşdərən muzey fondunda 10 mindən artıq eksponat saxlanılır. Kolleksiyaların böyük hissəsi isə XVII-XX əsrlərə aiddir.

Burada quraşdırılmış xüsusi monitor Azərbaycan xalçalarının dünya kolleksiyalarında, Avropa rəssamlarının əsərlərində əks olunduğunu göstərir. Böyük Britaniyanın Viktoriya və Albert Muzeyində saxlanılan məşhur "Şeyx Səfi" xalçasının surəti də var.

Demək olar ki, muzeyin sərgi konsepsiyası adi sərgilərdən fərqlənir. Xalçalar qövsşəkilli divarlardan asılır. Bunların da əksi bütün yuxarı mərtəbələrin əksər yerlərindən görünür. Bunun sayəsində sərginin böyük hissəsini müxtəlif rakurslardan görmək olur.

Bununla yanaşı, bədii naxış tikmələri, parçalar və milli geyimlər, habelə metal, keramika, şüşə məmulatlardan və çini qablardan ibarət əl işləri nümayiş və mühafizə olunur.

***MÜŞFİQƏ***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti üzrə hazırlanmışdır**